**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XARİCİ KAPİTALIN QEYRİ-NEFT SEKTORUNUN İNNOVASİYALI İNKİŞAFINA TƏSİRİNİN GÜCLƏNDİRİLMƏSİ

İxtisas: **5312.01-“Sahə iqtisadiyyatı”**
Elm sahəsi: **İqtisad elmləri**
İddiaçı: **Fuad Oqtay oğlu Hacıyev**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Gəncə-2022**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Gəncəli Əziz oğlu Gənciyev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Ramiz Kamal oğlu İsgəndərov**

iqtisad elmləri namizədi, dosent
**Nüşabə Aslan qızı Hacıyeva**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Yeganə Əziz qızı Abbasova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurası

Dissertasiya şurasının
sədri: AMEA-nın həqiqi üzvü i.e.d , professor

______________ **Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının
elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru, dosent

______________ **Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın
sədri: əməkdar kənd təsərrüfatı içşçisi,
iqtisad elmləri doktoru, professor
______________ **İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzünün aktuallığı və işlənmə dərəcəsi.** Müasir dünya qloballaşma və beynəlxalq kapital miqrasiyasının tendensiyaları xarici investisiyaları cəlb etməklə iqtisadiyyatları inkişaf etməkdə olan ölkələrin sənaye sahələrinə yeni perspektivlər açır. Üstəlik, Azərbaycana xarici kapitalın cəlb edilməsi problemi, xarici investisiya potensialının mövcudluğu nəzərə alınaraq strateji dəyişikliklərin yeni istiqamətlərinin seçilməsini tələb edir.

Dünyanın rəqabət qabiliyyətli texnologiyalarına əsaslanan iqtisadiyyatın şaxələndirilməsi qloballaşmanın ən xarakterik təzahürlərindən biridir, sərhədlərarası kapital axınlarının güclənməsi iqtisadiyyatın modernləşdirilməsinə, xarici investisiyaların dinamik cəlb olunmasına və rəqabət qabiliyyətli texnologiyaların iqtisadi əlaqələr strukturuna uyğunlaşdırılmasına kömək edir, bununla da bir çox ölkənin iqtisadiyyatında innovasiyaların rolunun artırılmasına xidmət edir. Lakin xarici investisiyalar sənayenin şaxələndirilməsini və intensivləşməni sürətləndirməklə yanaşı, bəzi hallarda beynəlxalq maliyyə təşkilatlarının və TMŞ-lərın investisiya axınlarına təsiri o qədər böyükdür ki, inkişaf etməkdə olan ölkələrin siyasi və iqtisadi suverenliyinin perspektivlərini və miqyasını təhlükə altına alır infilasiyaya şərait yaradır Azərbaycan sənayesinin inkişafının innovasiyalı yoluna keçmək proseslərində əsas kapitalın dünyanın rəqabətə davamlı texnologiyaları əsasında yenilənməsi xüsusi əhəmiyyət kəsb edir. Ümumiyyətlə, ölkəyə gələn xarici investisiyaların cəlb edilməsinə artan ehtiyac innovasiyaların tətbiqini qaçılmaz edir.

Modernləşmənin müasir mahiyyəti qısa və uzun müddətdə sənayenin inkişafını müəyyən edəcək elmi-texniki tərəqqinin tənzimlənməsinin innovasiya və investisiya problemlərinə təsir göstərir. Bu baxımdan fundamental və tətbiqi tədqiqatların rolu daima artır, çünki yalnız sənayedə deyil, bütün milli iqtisadiyyatda toplanmış potensialın istifadə dərəcəsi onların səviyyəsindən asılıdır. Bu gün Azərbaycan milli iqtisadiyyatının dinamik inkişafı intellektual mülkiyyətin intensiv beynəlxalq mübadiləsi olmadan, xarici kapital və texnologiya cəlb edilmədən mümkün deyil. Bu qlobal model investisiya mənbələrinin məhdudluğu səbəbindən Azərbaycan üçün xüsusilə aktualdır. Bu

da öz növbəsində, xarici kapitalın ölkəmizin iqtisadiyyatına yatırılması üçün bazar mexanizmlərinin inkişafından birbaşa asılıdır.

Bu baxımdan, dissertasiya mövzusu, məqsədi və vəzifələrinin seçilməsini əvvəlcədən müəyyənləşdirmiş innovasiya və investisiya proseslərinin genişləndirilməsi, ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi və daxili iqtisadiyyatın modernləşdirilməsində potensialdan səmərəli istifadə problemi xüsusi aktuallıq kəsb edir.

Azərbaycan tədqiqatçıların sırasında innovasiya prosesin təşkili və innovasiyalı strukturların formalaşması ilə əlaqədar Səmədzadə, Z.Ə., Quliyev, E.A., Ataşov, B.X., Gənciyev, G.Ə., İbrahimov, İ.H., Quliyeva, A.E., Əliyev,T.H., Hacızadə E.M., Aslanzadə, İ.A., Tağıyev, A.H., Qasımlı, V.Ə., Qasımov, F.H., Həsənova, P.Ə., Həsənov, R.T., və s. alimlərin adlarin çəkmək olar.

Kapital ixracının qeyri-neft sektorunun innovasiyalı inkişafına təsirinin gücləndirilməsi və bu mövzuya yaxın sahələrdə tədqiqatları MDB ölkələrində Vilenskiy, P.L., Qoçiyayev, K.B., Komarov, V.V., Toğanbayeva, A.Y., Kenjebayeva, Z.S., Çunayeva, O.K. və s. kimi iqtisadçı alimlər tərəfindən aparılmışdır.İnkişaf etmiş ölkələrin tədqiqatçıları tərəfindən bu sahədə araşdırmaları aparanlar sırasında Dornbuş R., Kindelberger Ç., Valter S.S. və s. adını çəkmək olar.

Lakin bu tədqiqatlarda kapital ixracının innovasiyalı inkişafa təsirinin qiymətləndirilməsi məsələlərin spesifik xüsusiyyətlərini nəzərə almaqla kompleks şəkildə tədqiq olunmamışdır. Həmin tədqiqatçıların əsas məqsədi xarici kapitalın innovasiya strukturların daha çox spesifik iqtisadi sahələrin inkişafına təsirinə və nəzəri-metodoloji məsələlərin həllinə istiqamətlənmişdir. Ümumən innovasiyalı iqtisadi artıma xarici kapitalın təsiri və bu baxımdan onun sahələr üzrə bölünməsinə birbaşa bizim tədqiqatımızda baxılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** ***İşin obyektini*** Azərbaycana cəlb edilən xarici kapitalın qeyr neft sektorunda istehsalın səmərəliliyinə təsiri təşkil edir. ***Tədqiqatın predmeti*** şaxələndirmə əsasında iqtisadiyyata istiqamətlənmiş xarici kapitaldan istifadə mexanizminin təkmilləşdirilməsidir.

**Dissertasiya işinin məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi qeyr neft sektorunda kapital ixracının Azərbaycanın innovasiyalı iqtisadi inkişafına təsirinin qiymətləndirilməsinə dair əməli təkliflər

hazırlanmasından ibarətdir. Dissertasiyanın məqsədinə uyğun aşağıdakı məqsədlər qarşıya qoyulmuşdur:

- kapital ixracın nəzəri-metodoloji məsələlərin tədqiq olunması;
- innovasiyaların inkişafında xarici kapitalın rolunun gücləndirilməsini şərtləndirən amillərin təsnifatlaşdırılması;
- Azərbaycanda kapital ixracının hazırki vəziyyətinin qiymətləndirilməsi;
- kapital ixracı və innovasiya fəaliyyəti arasında əlaqələrin təhlilinin aparılması;
- xarici kapitalın iqtisadiyyatın nəticəli göstəricilərinə təsirinin qiymətləndirilməsi;
- qeyr neft sektorunda xarici kapitalın istehsalın strukturunun təkmilləşdirilməsinə təsirinin müəyyən edilməsi;
- qeyr neft sektorunun sahələri arasında xarici kapitalın bölüşdürülməsinin iqtisadi mexanizminin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması;
- yüksək texnologiyaların əldə edilməsində xarici kapitalın istifadə edilməsinin yaxşılaşdırılmasına dair təkliflərin verilməsi.

**Tədqiqat metodları.** Dissertasiya işində statistik təhlil, qruplaşdırma və müqayisəli qiymətləndirmə metodlarından istifadə olunmuşdur. Eyni zamanda dissertasiyada Azərbaycan Respublikası Prezidentinin sərəncamları, dövlət proqramları, Milli Məclisin qəbul etdiyi qanun və normativ aktları, İqtisadiyyat Nazirliyinin materialları və hesabatları istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- kapital ixracının əsas mənbəyi onun təkrar istehsal prosesində yığımının yüksək olmasının nəticəsi kimi əsaslandırılması;
- qeyr neft sektorunda xarici kapitalın iqtisadiyyata cəlb edilməsi xüsusiyyətləri və onun şərtləndirən amillərin konkretləşdirilməsi;
- innovativ layihələrin həyata keçirilməsinə yönəldilən xarici innovasiyaların tender əsasında aparılmasının zəruriliyi;
- ÜDM-in 2%-ə qədər elmi araşdırmaların maliyyələşdirilməsi üçün dövlət büdcəsindən başqa xüsusi vençur fondlarının yaradılmasının zəruriliyinin əsaslandırılması;

- qeyr neft sektorunda xarici kapitaldan istifadənin səmərəliliyinin qiymətləndirilməsi;
- Azərbaycan iqtisadiyyatının inkişafında xarici kapitalın iştirak dərəcəsi iqtisadiyyatın innovasiya tərtib hissəsinin gücləndirilməsi üçün yeterli olmamasının əsaslandırılması;
- qeyr neft sektorunda kapital ixracının iqtisadiyyatın diversifikasiyasının və rəqabət qabiliyyətli iqtisadiyyatın formasına kömək edən əsas amillərdən biri kimi tədqiqi;
- qeyri-neft sektorunnun investisiya cəlbediciliyinin stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi;
- sosial-iqtisadi proqramların icrasında xarici kapitaldan istifadə proqramlarının əsaslandırılması.

**Dissertasiyanın elmi yeniliyi** xarici kapitaldan istifadə edilməsi mexanizminin təkmilləşdirilməsi üçün əməli təkliflər hazırlamağdan ibarətdir. Disertasiyanın elmi yenilik elementlərinə aşağdakılar aiddir;

- milli iqtisadiyyatda xarici kapitaldan istifadənin xüsusiyyətlərinin konkretləşdirilməsi və onu şərtləndirən amillərin qiymətləndirilməsi;
- qeyr neft sektorunda xarici kapitalın iqtisadiyyatın diversifikasiyasına və rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə kömək edən amil kimi tədqiqi;
- qeyr neft sektorunda xarici kapitaldan, istifadənin müasir vəziyyətinin qiymətləndirilməsi;
- hazırkı şəraitdə respublikada innovativ iqtisadiyyatın yaradılmasında xarici kapitalın iştirak dərəcəsinin yetərli olmamasının əsaslandırılması;
- xarici kapitalın iqtisadiyyatın diversifikasiyasına və rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə amil kimi tədqiqi;
- respublikamızda sosial-iqtisadi inkişaf proqramlarının icrasında və işğaldan azad olunmuş rayonların resurslarından istifadə edilməsində xarici kapitalın ölkəyə cəlb edilməsi istiqamətlərinin müəyyənləşdirilməsi.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** əsasən onunla izah olunur ki, aparılan sistemləşmələr, ümumiləşmələr və konseptual yanaşmalar iqtisadi artımın innovasiya strukturlarının formalaşması və

inkişafı istiqamətlərinin təşkil olunmasına kömək edəcəkdir. Dissertasiyada əldə edilən nəticələr beynəlxalq və respublika səviyyəsində keçirilmiş elmi-praktiki konfranslarda məruzə edilərək aprobasiyadan keçmişdir.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəa, nəticə və təklifləri Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallardakı 6 məqalədə, Bakı Biznes Universiteti (2021), Qərbi Kaspi Universiteti (2021) və Интернаука международной научно - практической конференции (Москва 2021) keçirtdikləri beynəlxalq elmi praktik konfransların materiallarındakı 3 tezisdə öz əksini tapmışdır. Çap olunmuş elmi əsərlər sırasında "Kapital ixracının innovasiyalı fəaliyyətdə istifadə edilməsinin əsas istiqamətləri" (Bakı, 2019), "Kapital ixracının iqtisadi mahiyyətinə nəzəri-metodoloji yanaşmalar." (Bakı, 2020), "Azərbaycanda kapital ixracının müasir vəziyyətinin qiymətləndirilməsi" (Bakı, 2020), "Kapital ixracı və innovasiya fəaliyyəti arasında əlaqələrin təhlili" (Bakı, 2021), "Технологическое развитие прямых иностранных инвестиций и экономики" (Москва, 2021), "Xarici kapitalın bölüşdürülməsinin əsas nəzəri-metodoloji istiqamətləri" (Bakı, 2021) adlı məqalələri göstərmək olar.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "İqtisadiyyat və vergi işi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Giriş (9413 işarə), I fəsil (62602 işarə), II fəsil (59628 işarə), III fəsil (68714 işarə), nəticə (14806 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (13517 işarə) üzrə ümumi həcm 231014 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər, istifadə olunmuş ədəbiyyat siyahısı və ixtisarların siyahısı istisna olmaqla 217497 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı, tədqiqatın məqsədi və vəzifələri, predmeti, müdafiəyə çıxarılan əsas müddəalar, problemin öyrənilmə vəziyyəti, tədqiqatın elmi yeniliyi və praktiki

əhəmiyyəti, işin aprobasiyası şərh edilir və əsaslandırılır.

Dissertasiyanın "**Kapital ixracının elmitutumlu milli iqtisadiyyatın inkişafında rolunun nəzarəti-metodoloji əsasları"** adlı I fəslində kapital ixracın iqtisadi mahiyyəti və onuun xüsusiyyətləri, kapital ixracının formalarından innovasiyalı fəaliyyətdə istifadə edilməsinə metodoloji yanaşmalar, qeyri neft sektorunda innovasiya fəaliyyətinin inkişafında xarici kapitalın rolunun gücləndirilməsini şərtləndirən amillər kimi məsələlər tədqiq olunur.

Kapital ixracı əmtəələrin hərəkətindən əhəmiyyətli dərəcədə fərqlənir. Xarici ticarət, bir qayda olaraq, istifadə dəyərləri olaraq mal mübadiləsinə qayıdır. Kapitalın ixracı isə qeyd etdiyimiz kimi, kapitalın bir hissəsinin ölkədə milli dövriyyədən çıxarılaraq başqa bir ölkənin istehsal prosesinə köçürülməsi prosesidir.

İlk mərhələlərdə kapitalın ixracı dünya iqtisadiyyatının periferiyasına kapital ixrac edən az sayda inkişaf etmiş ölkələrə xas idi. Dünya iqtisadiyyatının inkişafı bu prosesin əhatə dairəsini xeyli genişləndirdi. Beləliklə, kapital ixracı istənilən uğurlu, dinamik inkişaf edən iqtisadiyyatın funksiyasına çevrilir. Müasir şəraitdə kapital ixracı prosesi əsasən inkişaf etmiş ölkələr və xüsusilə Çin, Rusiya, Braziliya və Hindistan tərəfindən inkişaf etdirilir.

Hazırda dünyada özünün sərfəli istifadəsini axtaran çox böyük həcmdə ehtiyat əmələ gəlmişdir. Sığorta şirkətləri, pensiya fondları, investisiya və digər fondlar bu vəsaiti yığırlar. 20-ci əsrin ikinci yarısından sonra kapital ixracı durmadan artır. Bu baxımdan kapital ixracın mərhələlərini, onların xüsusiyyətlərini nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik. (şəkil 1). Göründüyü kimi, kapital ixracı həm əmtəə ixracından, həm də sənayeləşmiş ölkələrin ümumi daxili məhsulundan üstündür. Kapital ixracının kəskin artması fonunda onun beynəlxalq miqrasiyası güclənir, yeni bazar əldə etmək uğrunda mübarizə kəskinləşir. Lakin, kapital sahibi müəyyən dividentlər qazanmağına baxmayaraq XIX əsrdə kapitalın ixracı kiçik miqyasda idi və onun miqrasiyası çox vaxt kapitalistin özünün miqrasiyası ilə müşayiət olunurdu. Bir növ coğrafi cəhətdən kapitalın ixracı xarici ticarətin açdığı yollarla gedirdi.

Monopoliyaların böyüməsi və "azad rəqabət" kapitalizminin yaranması ilə əlaqədar kapitalın ixracı dünya bazarında genişlənmənin ən

vacib vasitəsinə, beynəlxalq istismarın ən xarakterik formasına, böyük dövlətlər tərəfindən digər ölkələrin və xalqların əsarət altına alınması siyasətinin aparılması üçün tipik bir vasitəyə çevrilir.




**Şəkil 1. Kapitalın beynəlxalq ixracının inkişaf mərhələləri**[1]

Kapitalizmin inkişafı ilə əsasən kapitalist ölkələrindən kapital ixracı sürətlə artır. Belə ki, 1902-ci ildə İngiltərə, Fransa və Almaniyanın ümumi xarici sərmayələri 101,5-111,5 milyard frank təşkil edirdisə, 1914-cü ildə bu göstərici 175-200 milyardadək artdı. Kapitalın ixracının sürətli kəmiyyət artımı, keyfiyyətcə ciddi dəyişikliklərə səbəb oldu[2].Keçmiş ittifaqın dağılması nəticəsində yeni dövlətlərin əmələ

[1] Şəkil müəllif tərəfindən tərtib edilib.
[2] Dornbush, R. Capital flight, theory, measurement and policy issues / R. Dornbush. – Wash, 1990.

gəlməsi, onların dünya təsərrüfatına inteqrasiya olunması maraqlarının güclənməsi nəticəsində 1998-ci ildən sonra xarici kapitala tələbat daha sürətli prosesə çevrildi və bu meyl hazırda da davam edir.

Dissertasiya işinin "**Qeyri neft sektorunda kapital ixracının iqtisadiyyatın inkişafına təsirinin qiymətləndirilməsi"** adl 2-ci fəslində Azərbaycanda kapital ixracının hazırki vəziyyəti, kapital ixracı və innovasiya fəaliyyəti arasında əlaqələrin təhlili, xarici kapitalın iqtisadiyyatın nəticəli göstəricilərinə təsirinin qiymətləndirilməsi kimi məsələlər tədqiq olunur.

Azərbaycan müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatına xarici sərmayələrin artımı başladı. Ölkə iqtisadiyyatına xarici investisiyalar əsasən maliyyə kreditləri, birbaşa investisiyalar, neft bonusları, portfel investisiyaları və s. formalarda axmağa başladı.

Azərbaycan iqtisadiyyatına yönəldilən maliyyə kreditləri əsasən Dünya Bankı Qrupu (WBG), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı (AİB), Beynəlxalq Valyuta Fondu (BVF), İslam İnkişaf Bankı (İİB) və digər beynəlxalq maliyyə qurumlarından daxil olmuşdur.

Qeyd edək ki, 2019-cu ildə Azərbaycan Dünya Bankının "Doing Business" reytinqindəki mövqeyini xeyli yaxşılaşdırmışdır. Ölkəmiz dünyanın 190 ölkəsi arasında 25-ci yeri tutaraq ümumi reytinqdə 32 pillə irəliləmişdir. Respublikamız Dünya Bankının "Doing Business" hesabatında ölkəmiz ilk dəfə 98-ci yeri tutmuşdur[3].

Müasir şəraitdə Azərbaycan bəzi mövqelərdə həmin reytinqdə lider yerlərdən birini tutur. Məsələn, ölkəmiz biznesə başlamaq üçün asan olduğu 10 ölkədən biridir.

Məlumdur ki, müəyyən bir ölkəyə investisiya qoyuluşu barədə qərar qəbul edərkən investorlar dünya reytinqini öyrənirlər. Azərbaycanın beynəlxalq reytinqlərdə hər zaman daha yüksək yerlərdə yer alması ölkə iqtisadiyyatına xarici sərmayələrin axınına şərait yaradır. Biznes mühitinin yaxşılaşdırılması üçün görülən ardıcıl tədbirlər investorlara inam yaradır. 15 il ərzində Azərbaycana təxminən 260

[3] Doing Business 2020, a World Bank Group flagship publicationhttps://www.doingbusiness.org/en/reports/global-reports/doing-business-2020

milyard dollara yaxın investisiya qoyulmuşdur[4]. Respublikamızın iqtisadiyyatına istiqamətlənmiş investisiyaların artım dinamikasını şəkil 2.-dən aydın görmək olar.




**Diaqram 2. Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyaların dinamikası (milyon ABŞ dollarla).[5]**

Diaqram 2-dən göründüyü kimi, tədqiq olunan dövrdə Azərbaycan iqtisadiyyatına yönəldilmiş birbaşa xarici investisiyaların həcminin dinamikası aşağı düşmüdür. Belə ki, 2014-cü ildə xarici investisiyalar 11 mlrd 700 mln. dollar olmaqla artıq 2020-ci ildə 4 mlrd. 527 mln manata qədər azalmışdır. Bu, ilk növbədə, Azərbaycanın daxili mənbələrin hesabına investisiyaların neft strukturuna yönəldilməsi ilə əlaqədardır. Eyni zamanda 2015-ci ildə ölkədə xarici valyutanın bahalaşdırılması ilə müşahidə olunan milli valyutanın iki dəfə devalvasiyaya məruz qalması da dolların bahalaşmasına təsir göstərib. Dolayısı ilə bu, Azərbaycanda müştərək layihələrdə müəyyən xərcləri ödəmək üçün xarici şirkətlər manatın devalvasiyası sayəsində cari əməliyyat, logistika və idarəetmə xərclərinə qənaət edə bildilər ki, bu da kapital qoyuluşlarının azalmasına səbəb oldu.

Diaqramda göründüyü ki, 2020-ci ildə ən çox xarici investisiyalar Birləşmiş Krallıqdan gəlmişdir və 1680,899 min manat təşkil etmişdir. Həmin ölkədən investisiyalar əsasən neft sahəsinə yatırılmışdır. İkinci yerdə, 577 993 manat həcmində invesitisiya yatırmış. Üçüncü, yerdə Amerika Birləşmiş Ştatları dayanır və onun investisiya məbləği 475

---

[4] Комаров, В.В. Мировая экономика. Прямые иностранные инвестиции / В.В. Комаров, Н.И.Литвина // ФГБОУ ВПО «Российский государственный аграрный заочный университет». – М.: Изд-во ФГБОУ ВПО РГАЗУ, 2012. – 246 с.

[5]Azərbaycan Dövlət Statistika Komitəsi https:/ /www. stat. gov. az/ source/ finance/ az/ 004az.xls

245 min manat təşkil edir. Digər tərəfdən, xarici investisiyaların milli iqtisadiyyatın sahələr üzrə paylaşmasının da müəyyən pozitiv dinamikasını müşahidə edə bilərik (diaqram 2.1).




**Diaqram 2.1. 2020-cu ildə xarici investisiyaların ölkələr üzrə bölünməsi (min manatla)**

Qeyri-neft sektoruna yönəldilən investisiyaların həcmində ümumi artım meyli ölkə iqtisadiyyatının inkişafındakı ümumi meyllərdən asılı olaraq formalaşmışdır. Başqa sözlə, ixrac ehtiyatlarının çoxalmasından və əlverişli investisiya mühitindən asılı olaraq neft sektoruna qoyulan investisiyalar müəyyən dövrdə iqtisadi inkişafda stimullaşdırıcı rol oynayır. Məlum olduğu kimi, investisiya imkanları ölkənin iqtisadi inkişafını xarakterizə edən əsas göstəricilərdən biridir. İnvestorlar iqtisadi və siyasi sabitliyə malik ölkələrə investisiya qoymağa üstünlük verirlər.

Dissertasiyanın **“Qeyri neft sektorunda kapital ixracının innovasiyalı milli iqtisadiyyatın inkişafına təsirinin gücləndirilməsi istiqamətləri”** adlı III fəslində qeyri neft sektorunda xarici kapitalın istehsalın strukturunun təkmilləşdirilməsinə təsiri, xarici kapitalın sahələr arasında bölüşdürülməsinin iqtisadi mexanizminin təkmilləşdirilməsi, qeyri neft sektorunda yüksək texnologiyaların əldə edilməsində xarici kapitaldan istifadə edilməsinin təkmilləşdirilməsi kimi məsələlər öyrənilir.

Azərbaycanda bazar iqtisadiyyatının əsaslarının formalaşması ölkənin milli müstəqillik qazanması və iqtisadi sahələrin inkişafı üçün əlverişli şərait yaratmış genişmiqyaslı islahatların həyata keçirilməsi

ilə sıx bağlıdır. Azərbaycanda müstəqilliyin elan edilməsi və bazar münasibətlərinə keçidlə əlaqədar iqtisadiyyat bir çox problemlə üzləşdi, o cümlədən istehsalın yenidən qurulması zərurəti maliyyə mənbələrinin çatışmazlığı, investisiya fəallığının azalması, bazar şərtlərindəki dəyişikliklər, zəruri bazar infrastrukturunun olmaması və s. 30 illik müstəqillik, səlahiyyətli bir investisiya siyasətinin və ölkənin dünya bazarlarına çıxışı uğurlu iqtisadi islahatların nəticəsi kimi qiymətləndirilməlidir. Buna baxmayaraq, milli iqtisadiyyatın uğurlu inkişafı üçün ölkənin sənaye kompleksində optimal struktur münasibətlərinə nail olmaq hələ bir çox vacib məsələlərin həllini tələb edir. Azərbaycanda bu istiqamətdə işlər İqtisadiyyat Nazirliyi və yeni yaradılmış "Azərbaycan İnvestisiya Holdinqi" çərçivəsində tətbiq oluna bilər. Üstəlik, bu İqtisadiyyat Nazirliyində xarici investisiyalarının daxil olmasının stimullaşdırılması ilə məşğul olan strukturlar fəaliyyət göstərir ("AZPROMO"). Eyni zamanda bu qurumun Azərbaycan Neft Fondu və SOCAR şirkətinin investisiya axınları ilə koordinasiyası mövcuddur. Azərbaycanda İqtisadiyyat Nazirliyinin Xarici İnvestisiya nəzarəti Bürosunun strukturunun təkmilləşdirilmiş variantlı şəkil 3.-də verilmişdir.




**Şəkil 3. Xarici investisiyaya nəzarət bürosunun strukturu[6]**

Fikrimizcə tərəfimizdən irəli sürülən xarici investisiyalara nəzarət bürosunun strukturunun təkmilləşdirilmiş variantı xarici kapitalın

---

[6] Şəkil müəllif tərəfindən tərtib olunub.

sahələr arasında düzgün bölüşdürülməsinə, investisiya mühitinin səmərəli formalaşmasına və inkişafına kömək edəcəkdir.

Əlverişli investisiya mühiti yaratmaq üçün əsas addımlar, ölkədəki iqtisadi vəziyyətin sabitləşdirilməsinə və investisiya prosesinin inkişafı və davamlı iqtisadi artımın bərpası üçün ümumi iqtisadi və siyasi ilkin şərtlərin yaradılmasına yönəlmiş dövlət iqtisadi siyasətinin bir sıra tədbirləri çərçivəsində həyata keçirilməlidir. İnvestorlar üçün əlverişli mühit yaradılması üçün aşağıdakı tədbirlərin görülməsini təklif edirik:

Xarici investisiya təminatlarının növləri

- Xarici investorların Azərbaycan Respublikası ərazisində fəaliyyətinin hüquqi qorunması zəmanəti
- Xarici investor tərəfindən Azərbaycan Respublikası ərazisində müxtəlif investisiya formalarından istifadə zəmanəti
- Xarici investorun hüquq və vəzifələrinin başqa bir şəxsə ötürülməsinin zəmanəti
- Xarici sərmayəçi və ya xarici investisiyalı bir kommersiya təşkilatının milliləşdirilməsi və əmlakının rekvizitləşdirilməsi halında kompensasiya zəmanəti
- Xarici investor tərəfindən Azərbaycan Respublikası ərazisində investisiyaların və sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar yaranan mübahisənin düzgün həll olunmasının təmin edilməsi
- Azərbaycan ərazisində mənfəət və gəlir və digər qanuni şəkildə əldə edilmiş məbləğlərin xaricə köçürülməsinə zamanət
- Xarici investorun milli müəssisələrin qiymətli kağızlarını almaq hüququnun təminatı
- Əcnəbi investorun xarici sərmayə kimi əvvəlcə Azərbaycan Respublikasının ərazisinə gətirilmiş kağız sənədi və ya elektron daşıyıcılarda əmlak və məlumatların ölkə xaricinə maneəsiz çıxarılması hüququnun zəmanəti

**Şəkil 3.1.2. Qeyri-neft sektorunda xarici investorların qorunmasına zəmanət sistemi**

Bank sisteminin yenidən qurulması üçün ciddi tədbirlərin görülməməsi, qiymətli kağızlar bazarının zəifliyi real sektora investisiya cəlb etmək perspektivlərini ciddi şəkildə çətinləşdirir. Müvafiq problemlər

həll edilmədən, birbaşa xarici investisiyaların cəlb edilməsi üçün daha spesifik mexanizmlərin istifadəsi təsirsiz ola bilər.

## NƏTİCƏLƏR

Tədqiqatımızı yekunlaşdıraraq, qeyd etməliyik ki, dissertasiya işində aşağıdakı əsas elmi nəticələr əldə edilmişdir:

- Qeyd etmək lazımdır: hər hansı bir kapital ixracının son məqsədi yüksək gəlir əldə etmək olsa da, səbəbləri fərqli ola bilər. Qərb ölkələri çox vaxt kreditlərini hərbi-siyasi mülahizələrə əsaslanaraq verirlər. Müəyyən bir ölkəyə və ya sənayeyə nüfuz edən şirkətlər bəzən mövqelərini daha da möhkəmləndirmək və gələcəkdə yüksək qazanca zəmin yaratmaq üçün əvvəlcə nisbətən az qazancla kifayətlənmək məcburiyyətində qalırlar və ya hətta müvəqqəti itkiyə məruz qalırlar. Çox vaxt kapital ixracı, rəqabətə davamlı sənaye ölkələrində proteksionist gömrük maneələrini aradan qaldırmaq üçün bir vasitə rolunu oynayır. Bu hallarda istehsal müəssisələrinin az qazancları (məsələn, iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrdə neft istehsalından əldə edilən qazancla müqayisədə) öz ölkələrindən kənarda satışların əhəmiyyətli dərəcədə genişlənməsinə mane olur.
- Dünya iqtisadiyyatın hazırki inkişaf dövründə kapital miqrasiyasının bir neçə xüsusiyyəti var:

*Birinci xüsusiyyət* inkişaf etmiş ölkələr arasında ixracın payının çox olmasıdır. Bu xüsusiyyət, ilk növbədə, bir sıra texniki üstünlüyə sahib olan ixracatçı ölkələrin başqa bir ölkənin ərazisində reallaşdırmağa səy göstərməsi və bununla da bazarının bir hissəsini ələ keçirməsi ilə əlaqələndirilir. Sənayeləşmiş ölkələrə kapitalın töhfəsi vahid qlobal iqtisadi məkanın yaranmasına, eləcə də transmilli korporasiyaların yaranmasına kömək edir.

*İkinci xüsusiyyət*, kapital axınının getdikcə daha çox forması insan təcrübəsi və bilikləridir. Bir çox elm adamı və alim Rusiya üçün yaşamaq və işləmək üçün xaricə köçürlər.

*Üçüncü xüsusiyyət*, bu gün kredit kapitalının ixracatı fəaliyyət ixracatından əhəmiyyətli dərəcədə çoxdur. Hətta onun təməlini düzəldir. Bu, sahibkarlıq yatırımları edən inhisarların öz növbəsində iri beynəlxalq banklardan kredit götürmələri ilə əlaqədardır. Beləliklə, ssuda kapitalının ixracı beynəlxalq kredit sisteminin əsasını təşkil edir.

*Dördüncü* xüsusiyyət: son zamanlarda dünyada birbaşa investisiyaların payı portfel investisiyaları ilə müqayisədə üstün artmasıdır. Sahibkarlar getdikcə ümumi biznesdə pay əldə etməkdənsə, nəzarət paylarını almağı və ya xaricdə öz filiallarını açmağı üstün tuturlar. Belə ki, son qırx il ərzində birbaşa xarici investisiyaların həcmi 8 dəfə artmışdır. Bu, fikrimcə, birbaşa investisiyaların investorlar üçün ən sərfəli olması və daha çox gəlir gətirmələri ilə əlaqədardır.

*Beşinci* xüsusiyyət: son vaxtlar kapital ixracının özəl formalarında artımın müşahidə olunmasıdır. Bu, özəl iş adamlarının müəssisələrini Kipr, Baham adaları, Monako və s. Kimi offşor zonalarda açmağı üstün tutması ilə əlaqədardır. İş ondadır ki, bu zonalar öz ərazisində yerləşən xarici müəssisələr üçün xüsusi vergi güzəştləri verir. Nəticə etibarı ilə sahibkarların dənizdə şirkət açması və ölkələrində yüksək vergi ödəməkdən daha az gəlir vergisi ödəməsi daha sərfəlidir.

- ➢ Dünya birliyindəki çətin siyasi və iqtisadi vəziyyətlə bağlı beynəlxalq kapital bazarın araşdırılmasından aydın olur ki, kapital ixracı qeyri-sabit vəziyyətdədir. Bununla birlikdə, birbaşa xarici investisiya axınlarında artım investorlar üçün perspektivli sahələrdə geosiyasi və sektor dəyişiklikləri proqnozlaşdırılır. Beynəlmiləlləşmə və qloballaşma proseslərinin getdikcə güclənməsi isə kapital ixracının miqyasının daha da genişlənməsini vəd edir.Buda dünyada fəaliyyət göstərən supergüclü inhisarları təmsil edən ölkələr üçün kapital ixracında yeni perspektivlərin aşılmasına və genişlənməsinə işarə edir.
- ➢ Baxmayaraq ki, innovasiya yenilikləri heç bir şübhə yaratmır, bununla belə ehtimal edilən risklər çox zaman bu yeniliklərin müəssisələr tərəfindən tətbiq edilməsinə maneə olur. Müəssisələr maliyyə itkilərinə məruz qalmamaq üçün bu yenilikləri tətbiq etməkdən çəkinirlər. Hesab edirik ki, müəssisə və dövlət səviyyəsində innovasiya fəaliyyəti ilə əlaqədar problemlərin həlli üçün məhdud resursların optimal bölgüsünü həyata keçirməklə, elmi araşdırmaların maliyyələşdirilməsi üçün əlavə maliyyə mənbələri axtarılmalıdır. Güman edirik ki, fundamental araşdırmalarda əsas maliyyə mənbəyi kimi dövlət büdcəsi vəsaitləri olmalıdır və vəsaitlər iki istiqamət üzrə ayrılmalıdır.
- ➢ Vençur biznesinin formalaşdırılması üçün güclü elmi-tədqiqat infrastrukturu olan və alim, mühəndis və yüksək ixtisaslı menecerlər hazırlamaq imkanı olan universitetlərin bu işə cəlb olunması

məqsədəuyğun olardı. Universitetlərlə yanaşı riskli investisiya əməliyyatlarının yerinə yetirilməsi üçün azad kapital tələb olunur. Bu vəsaitlər pensiya fondları, sığorta şirkətləri, ictimayi fondlar, bank strukturları, fərdi investorların maliyyə vəsaitləri ola bilər, bunun üçün isə müvafiq qanunvericilikdə münasib dəyişikliklər edilməlidir. Digər coğrafi rayonlardan fərqli olaraq özünün tələb iddiaları ilə daha yüksək səviyyədə dayanan və tələbə meylli zümrələrin yaranmasının da vacibliyi diqqətdən kənarda qalmamalıdır. Bu şəraitdə hər hansı innovasiya fəaliyyətinin kommersiyalaşdırılması üzrə bir-biri ilə rəqabət apara bilən müəssisələrin yaradılması mümkündür. Eyni zamanda klasterin formalaşdırılması üçün vençur biznesinin istehsalla dəstəklənməsi əhəmiyyət daşıyır. Vençur maliyyələşdirilməsi mexanizminin formalaşdırılmasının növbəti aspekti yüksək ixtisaslı kadrların hazırlanması ilə əlaqədardır.

- İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin dünya təcrübəsi göstərir ki, iqtisadi islahatlar şəraitində, xüsusən də böhranlı hallarda dövlətin rolu stabillik və canlanma şəraitində azalır, lakin heç vaxt dayanmır. Bütün hallarda dövlət əsas qaydanı saxlamalı, yəni sahibkarlıq, investisiya fəaliyyətinə və ölkənin iqtisadiyyatına elə təsir etməlidir ki, bazarın əsasları pozulmasın, böhran hallarına imkan verilməsin.
- İqtisadiyyatın tənzimlənməsi funksiyalarını yerinə yetirmək üçün dövlət innovasiya fəaliyyətinə və ölkənin iqtisadiyyatına təsir etmənin iqtisadi (dolayı), inzibati (birbaşa) metodlardan mövcud qanunvericilik aktların və fərmanların verilməsi və təkmil-ləşmələrin aparılması yolu ilə, həmçinin müəyyən iqtisadi, o cümlədən kapital ixracının da aparılması vasitəsindən istifadə edir.
- Aparılmış hesablarımız nəticəsində, əldə olunmuş korrelyasiya əmsalının göstəricisi yalnız energetika sahəsində xarici investisiyaların səmərəli istifadəsini göstərir. Belə ki, hadisələr və proseslər arasında korrelyasiya (əlaqəlilik) sığlığının müəyyən olunmasının əsas şərti, korrelyasiya əmsalının [0;1] intervalında dəyişilməsidir.0 – heç bir əlaqənin olmamasını, 1- tam sıx əlaqəninin göstəricisidir. Beləliklə də, Energetika sahəsində yatırılmış xarici investisiyalar və əsas makroiqtisadi göstərici arasında korrelyasiya əmsalı 0,8280 olduğuna və digər sahələrdə bu əlaqənin zəif (0,7 aşağı olduğuna görə) olmasına

görə biz tədqiq olunan sahələr sırasında məhz energetika sahəsində xarici investisiyaların müsbət təsiri haqqda nəticəyə gələ bilərik .

- Tədqiqatımız göstərdiyi kimi, bütövlükdə 2019-cu ildə xarici ölkələrdə avadanlıq, maşın və proqram təminatı (mənimsəyib götürmə) satın almış müəssisələrin Azərbaycan üzrə payı özü ETTKİ yerinə yetirən müəssisələrdən üç dəfə çox idi.

Azərbaycanda ümumilikdə vəziyyət ölkəmizə xas olan və qeyd edilən göstəricilərin nisbətlərinin ümumi meyllərini əks etdirir. Bununla yanaşı iqtisadiyyatın real sektorunda yerli innovasiya fəaliyyətinin "konfiqurasiyasında" aydın ifadə olunan nöqsanlar var. Bu nöqsanlar Azərbaycanda, Avropa ölkələri ilə müqayisədə, öz işçi heyətinə təlim keçən müəssisələrin payının xeyli aşağı olması ilə bağlıdır.

- Azərbaycan Respublikasında iqtisadiyyatın innovasiya artımı daha çox xammal sahələrinin üzərində qurulub və geniş texnoloji bazaya malik deyil. Buna görə də BXİ cəlb etməklə innovasiya proseslərini fəallaşdırma gələcək inkişaf üçün ən optimal yoldur. Təklif etdiyimiz BXİ cəlb etmə əsasında ölkə iqtisadiyyatının innovasiyalı inkişafının dörd fazalı nəzəri modeli dünya təcrübəsinə və Azərbaycan Respublikasının iqtisadiyyatının spesifik xüsusiyyətlərinə əsaslanır. Birinci fazada lokal xüsusiyyətlərə və neft-qaz kimya kompleksinin idarəçilik, təşkilati və texnoloji səviyyəsinə ən uyğun xarici texnologiyaların seçilməsi üzrə absorbsiya siyasətinin formalaşdırılması və aparılması nəzərdə tutulur. Sonra respublikanın neft-qaz kimya kompleksinin istehsalat bazasının və infrastrukturunun mənimsəyib götürülməsi nəzərdə tutulan xarici texnologiyaların texniki, təşkilati, iqtisadi və idarəçilik səviyyəsinə uyğunlaşdırılmasının həyata keçirilməsi planlaşdırılır. Sözügedən modelin bu fazasında iqtisadiyyatın bu sahənin məhsullarına əsas tələbatı idxal hesabına təmin olunur.

- Azərbaycanın qeyri-neft sektorunda xarici kapital hesabına maliyyələşən layihələrin əksəriyyətini qismən aşağı texnoloji sahələr təşkil edir, bu isə ölkə iqtisadiyyatının innovasiyalı inkişafına az kömək edir. BXİ axınlarının istiqamətini dəyişdirərək əlavə dəyəri yüksək olan elmtutumlu yüksək texnoloji sahələrə yönəltmə üzrə səylər göstərilməlidir. Apardığımız sosial sorğumuzlardan bəlli oldu ki, Bakı və Sumqayıt birbaşa xarici investisiyalı layihələrin demək olarki yarısını (37% və 12%) cəlb edib. Ölkənin səkkiz iqtisadi rayonu 2-5%

arası paya (Muğan-Aran iqtyisadi rayonu -5%, Lənkəran-Astara iqtisadi rayonu - 4–, Şəki-Zaqatala və Yuxarı Şirvan iqtisadi rayonları - hər biri 3%, digər iqtisadi rayonlar -26 %) malik idi. Sorğumuzun nəticələrinə görə, kapitalın Azərbaycana ixrac olunması üçün əsas maneələr kimi inzibati prosedurların mürəkkəbliyi (25%), rüşvətxorluğun yüksək səviyyədə olması (21%), sərt tənzim, lisenziyalaşdırma və ya biznesin aparılması üçün icazənin alınması ilə bağlı çətinliklər (14%), yalnız daxili bazarda sahibkarlıq məhdudiyyəti (10%) çıxış edir.

➢ Fikrimizcə, qeyri-neft sektorunun sənaye komplekslərinin investisiya cəlbediciliyinin qiymətləndirilməsi modeli - sənaye komplekslərinin iqtisadi artım səviyyəsini və dinamikasını, gəlirlilik (rentabellik) səviyyəsini və dinamikasını, risk səviyyəsini və dinamikasını təsvir edən qarşılıqlı asılılıq sistemi əsasında həyata keçirilməlidir. Belə bir qarşılı asılılıq sisteminin istifadəsi potensial investorlar üçün sənaye komplekslərinin cəlbedicilik səviyyəsini hərtərəfli qiymətləndirməyə imkan verəcəkdir.

➢ Apardığımız tədqiqat nəticəsində xarici kapitalın və birbaşa investisiyaların iqtisadiyyatın qeyri-neft sahələri arasında bölünməsinin müəllif tərəfindən hazırlanmış metodiki yanaşmanı da qeyd etmək istəyərdik. Belə ki, xarici investisiyaların optimal sahələr arası paylaşmasının iki əsas meyarı olur. Biri milli istehsalın ixrac potensialının artırılması, digəri isə daxili bazarın istehlak qabiliyyətinin artırılmasıdır.

Biz tədqiqatımızda, ikinci meyar üzrə araşdırma aparmışıq və xarici investsiyaların sahələrə cəlb olunmasında aşağıdakı metodikanı təklif edirik:

- Bütün iqtisadi sahələr üzrə cari "əlavə dəyər istehsalı" statistik göstəricisinə görə sıralama aparılır;
- Sırada ən aşağı göstəriciyə malik olan 3 sahə seçilir;
- Beynalxalq statistika məlumatlarından "əlavə dəyər istehsalı" göstəricisinə görə ən yüksək göstəricisi olan 10 ölkə seçilir;
- Həmin ölkələrin sırasında Azərbaycana geostrateji və geoiqtisadi baxımdan yaxın ölkələr seçilir;
- Seçilmiş ölkələrdən seçdiyimiz 3 iqtisadi sahəyə xarici investisiyaların cəlb olunması üçün xüsusi investisiya planı hazırlanır. Həmin

planda investisiyaların həcmi, dövriyyə müddəti və təsir effekti hesablanır;

- Hazırlanmış investisiya planların arasında ən optimalı seçilir.

Beləliklə də, yuxarıda qeyd etdiyimiz investisiya planı əsasında "əlavə dəyər istehsalı" zəif olan iqtisadi sahələr dünyada aparıcı mövqelərə malik olan ölkələrin təcrübəsindən və maliyyəsində bəhrələnərək öz göstəricisini artırmaq şansın qazanacaqdır. "Əlavə dəyər istehsalı" göstəricisinin seçilməsi həmin göstəricidə sahə üzrə "gəlir", "əmək haqqı", "emal xərcləri" nəzərə alındığına görə biz öz seçimimizi məhz bu göstəricinin üzərində saxladıq. "Əlavə dəyər istehsalı" ölkədə nə qədər çox olarsa, bir o qədər onun ÜDM-i və məhsulların rəqabətqabiliyyətliyi də artıq olacaq. Bunu nəzərə alsaq, zənnimizcə, seçdiyimiz göstəricinin xarici investisiyaların sahələr üzrə paylamasında mühüm meyar olduğunu qəbul etmək olar.

➢ Xarici investorlar vasitəsi ilə qabaqcıl texnologiyaların səmərəli cəlb edilməsi üçün, fikrimizcə, aşağıdakıları nəzərə almaq lazımdır:

1. İnvestisiya üçün sabit şəraitin yaradılması. Hər hansı bir yeniliyin həyata keçirilməsi üçün vaxt və yüksək xərclər tələb olunur və daim dəyişən qaydalar və qaydalar olan bir ölkədə investisiya qoymaq çətindir: nəticə gözlənilməzdir.

2. Risk və gəlir nisbəti hər hansı bir investisiyanın əsas xüsusiyyətidir. Yeni inkişafdan əldə olunan potensial mənfəət çox yüksək ola bilər, lakin ilk mərhələdə demək olar ki, həmişə böyük bir investisiya tələb olunur. İnnovasiyaya qoyulan sərmayə gəliri uzunmüddətlidir və ümumiyyətlə zamanla təxirə salınır. İnvestorlar belə bir layihədə "sürətli" pul qazanmağın mümkün olmadığını yaxşı bilirlər. Güclü bir çəkindirici rol oynayan məhz bu amildir.

İnnovasiyalı bir iş olduqca risklidir: bir elm tədqiqatçısı üçün mənfi nəticə də bir elmi nəticədir, amma investor üçün bu pul və vaxt itkisidir.

3. *Aydın bir güzəştli investisiya siyasətinin olmaması.* Birincisi, investorların əksəriyyətini ilk növbədə qısa müddətdə maksimum qazanc gətirə biləcək layihələr və sahələr cəlb edir və *innovasiyalar* sahəsi bunlara şamil edilmir. İkincisi, Azərbaycanda tətbiqetmənin ilkin mərhələlərində yenilikçi məhsulların hazırlanmasına və tətbiqinə

dəstək verən vençur fondları şəklində ixtisaslaşmış qurumlar yoxdur. Üçüncüsü, bir sıra inkişaf etməkdə olan ölkələrin təcrübəsini xatırlasaq, orada innovasiya layihələri ümumiyyətlə azad iqtisadi zonalarda güzəştli vergilər və istehsal üçün hazırlanan ərazilərdə başlanırdı.

4. *Kifayət qədər yüksək vergilər, əqli mülkiyyətin zəif qorunması, bürokratik əngəllər* xarici sahibkarlara bu cür layihələrə investisiya qoymaq imkanı vermir.

Dövlətin investisiya fəaliyyətinə təsiri üçün geniş alətlər dəsti arasında investisiya fəaliyyətinə informasiya dəstəyi də qeyd edilməlidir. Müasir şəraitdə, birbaşa xarici investisiyaların cəlb edilməsi prosesinin genişləndirilməsinə və xarici iqtisadi əlaqələr strukturun mühüm tərkib hissəsi olan xarici investorların kapitalı, informasiya dəstəyi sisteminə tələbatı var. Belə ki, dövlətin effektiv media və kommunikasiya strategiyası, respublikaya gəlirli xarici sərmayə qoyuluşu üçün xoşagəlməz stereotiplərin və təsəvvürlərin məhv edilməsini təmin etməli, Azərbaycan imicinin yaradılmasına kömək etməlidir.

➢ Qeyri-neft sektorunda innvasiyalara vəsait qoyan xarici investorlarına dövlətin investisiya cəlbediciliyini artırmaq məqsədilə aşağıdakı tədbirləri görmək lazımdır:

- vergi qanunvericiliyinin sadələşdirilməsi və istehsalın stimullaşdırılması istiqamətində yenidən baxılması;
- fəaliyyətlərinin digər sahələri ilə müqayisədə daha yavaş kapital dövriyyəsindən düşən zərərləri tam ödəmək üçün uzunmüddətli investisiyalara gedən xarici investora vergi güzəştlərini təmin etmək;
- işçilərə əmək haqqının verilməməsi istisna olmaqla, dünya praktikasında məlum olan bütün tədbirlər ilə inflyasiyanın qarşısını almaq;
- prosedurları sadələşdirmək və xarici investisiyalı kommersiya təşkilatlarının qeydiyyat müddətini azaltmaq;
- respublika ərazisində xarici investorların investisiya fəaliyyətini təşviq edən mexanizmlər hazırlamaq və yaratmaq;
- ixtisaslaşmış investisiya strukturlarının yaradılması ilə investorlar üçün informasiya dəstəyinin inkişafı;
- müqavilələrin toxunulmazlığının məhkəmə icrası;
- respublika iqtisadiyyatı üçün ən aktual və perspektivli investisiya layihələrini seçən və təbliğ edən bir qurum yaratmaq, habelə

Azərbaycan Respublikasının milli maraqlarına cavab verməyən xarici investisiyalardan qorunmaq.

Bu tədbirlərin həyata keçirilməsi, fikrimizcə, müəssisələrin innovasiya və investisiya fəallığını artıracaq, milli innovasiya sisteminin inkişafını və iqtisadiyyatın struktur dəyişikliklərini təmin edəcəkdir. Dolayısı ilə də, bunların nəticəsində xarici investorların ölkəmizə kapital ixracına şərait yaratmış olacaq.

**Dissertasiyanın əsas elmi nəticələrinə dair aşağıdakı elmi əsərlər çap olunmuşdur:**

1. Hacıyev, F.O. Azərbaycanda kapital ixracının müasir vəziyyətinin qiymətləndirilməsi. Azərbaycan Memarlıq və İnşaat Universiteti Tikintinin İqtisadiyyatı Və Menecment. 2020 №3 səh 84-89
2. Hacıyev, F.O. Kapital ixracı və innovasiya fəaliyyəti arasında əlaqələrin təhlili. Azərbaycan Respublikası Maliyyə Nazirliyi Maliyyə&Uçot Jurnalı 2021 №03,04
3. Hacıyev, F.O. Kapital ixracının innovasiyalı fəaliyyətdə istifadə edilməsinin əsas istiqamətləri. AMEA . İqtisadiyyat İnstitutu Elmi əsərlər 196-201
4. Hacıyev, F.O. Kapital ixracının iqtisadi mahiyyətinə nəzəri-metodoloji yanaşmalar. Azərbaycan Kooperasiya Universiteti "Kooperasiya" Elmi-praktiki jurnalı Bakı. №2 Səh 154-159
5. Hacıyev, F.O. Yüksək texnologiyaların əldə edilməsində xarici kapitaldan istifadə edilməsinin təkmilləşdirilməsi . Qərbi Kaspi Universiteti "Azərbaycanın İnkişaf tarategiyasında Heydər Əliyev irsi" Mövzusunda multidissiplinar elmi-praktiki konfrans.
6. Hacıyev, F.O Xarici Kapitalın sahələr arasında bölüşdürülməsinin İqtisadi mexanizminin təkmilləşdirilməsi "Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafının əsas istiqamətləri" mövzusunda beynəlxalq konfrans Bakı Biznes Universiteti 2021
7. Гаджиев, Ф.О. Технологическое развитие прямых иностранных инвестиций и экономики. Экономика и Право 6-10
8. Гаджиев, Ф.О. Современное состояние экспорта капитала в Азербайджане. Интернаука международной научно – практической конференции Москва 71-74
9. Hacıyev, F.O. Xarici kapitalın bölüşdürülməsinin əsas nəzəri-metodoloji istiqamətləri. Azərbaycan Kooperasiya Universiteti "Kooperasiya" Elmi-praktiki jurnalı Bakı. №4(63) Səh 30-38

Dissertasiyanın müdafiəsi 30 mart 2022-ci il tarixdə, saat 14:00-da Azərbaycan Dövlət Aqrar Universiteti nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə Dissertasiya Şurasının iclasında keçiriləcək..

Ünvan: AZ2000, Azərbaycan Respublikası, Gəncə şəhəri, Atatürk prospekti, 450.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universiteti rəsmi internet saytında (www.adau.edu.az) yerləşdirilmişdir.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universiteti kitabxanasında tanış olmaq olar.

Avtoreferat "28" fevral 2022-ci ildə göndərilmişdir.

Çapa imzalanıb: 23.02.22
Kağızın formatı: 60x84
Həcm: 43635 işarə
Tiraj: 100